**Arxeologiya və Etnoqrafiya muzeyi**

| | |
|---|---|
| **Ünvan** | AZ7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76 |
| **Yaranma tarixi** | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin "Arxeologiya və Etnoqrafiya muzeyi" 2009-cu ilin sentyabr ayından fəaliyyət göstərir. |
| | Muzeyin yaradılmasında əsas məqsəd Naxçıvan şəhərinin beş minillik yaşından soraq verən qədim arxeoloji, tarixi, memarlıq, təbiət və mədəniyyət abidələrimizi qorumaq, öyrənmək, təbliğ etmək, gələcək nəsillərin diqqətinə çatdırmaqdan ibarətdir. |
| | Bölmənin "Arxeologiya və Etnoqrafiya muzeyi"nə 400-dən çox eksponat daxil olub. Bu eksponatlar Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il il tarixli sərəncamı əsasında muxtar respublika ərazisində olan qədim abidələrin tədqiqi zamanı əldə edilən maddi-mədəniyyət nümunələridir. Muzeydə 2006-2017-ci illərdə bölgənin müxtəlif ərazilərindən, o cümlədən Oğlanqala, Ovçulartəpəsi, Meydantəpə, Xaraba Gilan, Şahtaxtı, Sədərək, Maxta Kültəpəsi, Duz dağ kimi qədim yaşayış yerlərində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi-mədəniyyət nümunələri toplanılıb. |